# *"Hürriyet" qəzeti:* "Ermənistan-Türkiyə dialoqu qardaş Azərbaycanın maraqlarına uyğun aparılmalıdır"

**"Təbii ki, Ermənistan-Türkiyə dialoqu qardaş Azərbaycanın maraqlarına uyğun aparılmalıdır".**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin tanınmış jurnalisti Fatih Çekirgenin "Hürriyet" qəzetində dərc olunan məqaləsində deyilir. Məqalənin müəllifi Türkiyə və Ermənistanın xüsusi nümayəndələri Serdar Kılıç və Ruben Rubinyanın iki ölkənin dövlət sərhədində bu yaxınlarda keçirdikləri görüşdən yazır və bu kontekstdə vurğulayır ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması iki ölkənin mövqeyinə zidd olmamalı, həmçinin regiona və xalqların rifahına töhfə verməlidir.

Yazıda Türkiyə və Ermənistan sakinlərinin iştirakı ilə sentyabrın 8-də Akdamar adasındakı kilsədə baş tutmuş sayca 12-ci ibadət mərasiminə diqqət çəkilir. Müəllif 1950-ci il hadisələrini xatırladır. Həmin vaxt türk jurnalisti Yaşar Kamal Van gölündəki kilsənin sökülməsi qərarının nəzərdən keçirilməsinə nail ola bilmişdi.




"Ümidvaram ki, düşmənçilikdən əl çəkmək və uzunmüddətli sülhə yaxınlaşmaq naminə Akdamar kilsəsində yenidən dualar oxunacaq və son dövrdə baş verən proseslər bölgədə münasibətlərin normallaşmasına töhfə verəcək", - deyə Çekirge qeyd edir.

---

Azərbaycan.- 2024.- 10 sentyabr (№196).- S.7.